Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 16 – 22 dekabr 2024-cü il •**

**“Elektrik təchizatı şəbəkələrinə qoşulma” İşçi qrupunun fəaliyyəti**

**20.12.2024**

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü tarixində təsdiq olunub.

**report.az**

**“Elektrik təchizatı şəbəkələrinə qoşulma” işçi qrupunun növbəti iclasının vaxtı məlum olub**

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Elektrik təchizatı şəbəkələrinə qoşulma” işçi qrupunun dekabrın 25-də videokonfrans formatında növbəti iclası keçiriləcək. "Report" bu barədə Energetika Nazirliyinə istinadən xəbər verir.

İclasda Dünya Bankının “Business Ready” hesabatının “Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi”nin icra vəziyyətinin, həmçinin 2025-ci il üzrə Yol Xəritəsinin layihəsinin müzakirəsi nəzərdə tutulur.

Bundan başqa, bu indikator ilə bağlı İntensiv Kommunikasiya Planında nəzərdə tutulan tədbirlərin icrası haqqında məlumat veriləcək və qarşıda duran çağırışlara dair müzakirələr aparılacaq.

**Mənbə:**

https://report.az/energetika/azerbaycanda-elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasinin-vaxti-melum-olub/

**Digər saytlar və portallar**

1. https://minenergy.gov.az/az/tedbirler/elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirilecek_9289

2. https://azertag.az/xeber/elektrik_techizati_sebekelerine_qosulma_ischi_qrupunun_novbeti_iclasi_kechirilecek-3340511
3. https://sia.az/az/news/economy/1215572.html
4. https://sia.az/az/news/economy/1215572.html
5. https://ikisahil.az/post/563240-elektrik-techizati-shebekelerine-qoshulma-ishchi-qrupunun-novbeti-iclasi-kechirilecek
6. https://www.azerbaycan24.com/azerbaycanda-elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasinin-vaxti-melum-olub/
7. https://crossmedia.az/az/iqtisadiyyat/energetika/isci-qrupun-iclasi-keciril-c-k
8. https://respublika-news.az/az/news/1734684990-isci-qrupunun-videokonfrans-formatinda-novbeti-iclasi-kecirilecek

9. https://bbn.az/elektrik-t%c9%99chizati-s%c9%99b%c9%99k%c9%99l%c9%99rin%c9%99-qosulma-isci-qrupunun-novb%c9%99ti-iclasi-keciril%c9%99c%c9%99k-2/
10. https://tezadlar.az/index.php/en/agenda/33465
11. https://newscenter.az/2024/12/20/elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirilecek.html
12. https://nocomment.az/elektrik-techizati-sebekelerine-qosulma-isci-qrupunun-novbeti-iclasi-kecirilecek/
13. https://tezadlar.az/index.php/en/iqtisadiyyat/33465-elektri-k-t-chi-zati-s-b-k-l-ri-n-qosulma-i-sci-qrupunun-novb-ti-i-clasi-keci-ri-l-c-k.html
14. https://fhnews.az/news/details/ldquoelektrik-tachizati-sabakalarina-qosulmardquo-isccedili-qrupunun-noumlvbati-09c54e
15. https://far.az/15543-elektrik-techizati-shebekelerine-qoshulma-ishchi-qrupunun-novbeti-iclasinin-vaxti-melum-olub.html
16. https://agah.az/31684/agah-4463/

"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü tarixində təsdiq olunub.

**“Risklərin təhlili” işçi qrupunun fəaliyyəti**

**19.12.2024**

**azranking.az**

**Biznes mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Risklərin təhlili” işçi qrupunun növbəti iclası keçirilib**




Dekabr ayının 19-da Biznes mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Daxili İşlər Nazirliyinin rəhbərlik etdiyi “Risklərin təhlili” işçi qrupunun onlayn formatda növbəti iclası keçirilib.
“Risklərin təhlili” işçi qrupunun rəhbəri, daxili işlər nazirinin müavini polis general-leytenantı cənab İsmət Əliyevin iştirakı ilə keçirilən iclasda epidemiya əleyhinə rejimin, sanitar-gigiyena və ya karantin rejimlərinin pozulması, yolxucu xəstəliklər, məcburi miqrasiya məsələləri, habelə 2024-cü il 25 sentyabr tarixində İşçi Qrupunun Bakı şəhərində keçirilmiş iclasın protokolunun yerinə yetirilməsi vəziyyəti və digər məsələlər müzakirə olunub.
İclasın yekununda İşçi qrupunun üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasına təqdim olunması məqsədilə 2025-ci ilin yeni Fəaliyyət Planı layihəsinə və gündəlikdə duran məsələyə dair təkliflərin İşçi qrupunun katibinə bildirilməsi ilə bağlı qrup üzvlərinə müvafiq tapşırıqlar verilib.

**Mənbə:**

https://azranking.az/az/

“Risklərin təhlili” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 03.06.2024-cü il tarixində təsdiq olunub

**Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun fəaliyyəti**

**19.12.2024**

“Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü tarixində təsdiq olunub.

**olaylar.az**

**Dövlət Xidməti tərəfindən “Dövlət satınalmaları haqqında” Qanunun tələbləri və “etender.gov.az” portalından istifadəyə dair maarifləndirmə seminarı keçirilib**




Maarifləndirmə tədbiri Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən təşkil olunub.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən dövlət satınalan təşkilatlarının aidiyyəti nümayəndələri və sahibkarlar üçün "Dövlət satınalmaları haqqında" Qanunun tələbləri və "etender.gov.az" portalından istifadəyə dair maarifləndirmə seminarı keçirilib. Seminarda açılış nitqi ilə Dövlət Xidmətinin rəis müavini Cəfər Babayev çıxış edib. "Dövlət satınalmaları haqqında" Qanunun dövlət maliyyə vəsaitlərinin səmərəli və qənaətlə istifadəsi, dövlət satınalmalarının rəqabətlilik əsasında həyata keçirilməsi, eləcə də kölgə iqtisadiyyatının qarşısının alınması və korrupsiya hallarına qarşı mübarizə sahələrində əhəmiyyətli rol oynadığı qeyd edilib.

Həmçinin qanunda əksini tapmış əsas yeniliklərin dövlət nəzarətinin gücləndirilməsi, müddətlərin optimallaşdırılması, bütün dövlət satınalmalarının elektronlaşdırılması, eləcə də dövlət satınalmalarında rəqabətin artırılması və şəffaflığın təmin edilməsinə xidmət etdiyi vurğulanıb.



Satınalan təşkilatlar tərəfindən növbəti il üzrə satınalma planının və ictimai nəzarətin təmin edilməsi üçün satınalmaların nəticələrinin portalda dərc edilməsi, habelə məxfi məlumatlarla əlaqəli satınalmalar istisna olmaqla, məbləği və metodundan asılı olmayaraq bütün satınalmaların dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə keçirilməsinin əhəmiyyətinə diqqət çəkilib.

Maarifləndirici tədbir çərçivəsində Dövlət Xidmətinin Dövlət satınalmalarına nəzarət şöbəsinin müdiri Əhməd Həsənov və sözügedən şöbənin müdir müavini Elşən Həsənov tərəfindən "Dövlət satınalmaları haqqında" Qanunun tətbiqi və "etender.gov.az" portalından istifadə ilə əlaqədar praktiki suallar cavablandırılıb.

**Mənbə:**

https://olaylar.az/news/iqtisadiyyat/581299

**Digər saytlar və portallar**

1. https://competition.gov.az/az/post/950/dovlet-xidmeti-terefinden-dovlet-satinalmalari-haqqinda-qanunun-telebleri-ve-etendergovaz-portalindan-istifadeye-dair-maariflendirme-seminari-kecirilib
2. https://xalqqazeti.az/az/last-news/207412
3. https://bbn.az/dovl%c9%99t-xidm%c9%99ti-t%c9%99r%c9%99find%c9%99n-dovl%c9%99t-satinalmalari-haqqinda-qanunun-t%c9%99l%c9%99bl%c9%99ri-v%c9%99-etender-gov-az-portalindan-istifad/
4. https://azadmedia.az/iqtisadiyyat/108302-dovlt-xidmti-trfindn-dovlt-satnalmalar-haqqnda-qanunun-tlblri-v-etendergovaz-portalndan-istifady-dair-maariflndirm-seminar-kecirilib.html

"Əmtəə bazarının səmərəliliyi və rəqabət" işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı 27.03.2024-cü tarixində təsdiq olunub.

**“Biznesə daxilolma” işçi qrupunun fəaliyyəti**

**19.12.2024**

**vergiler.az**

**Kommersiya qurumlarının dövlət qeydiyyatına alınması ilə bağlı yeni buklet hazırlanıb**

İİqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən kommersiya qurumlarının dövlət qeydiyyatına alınması ilə bağlı yeni buklet hazırlanıb. Bukletdə kommersiya qurumunun qeydiyyata alınma formaları, tələb olunan sənədlər, qeydiyyata alınma müddətləri, qeydiyyat sənədlərinin verilməsi, qeydiyyat və uçot məlumatlarının dəyişdirilməsi, habelə vergi ödəyiciləri üçün faydalı ola biləcək digər məlumatlar, o cümlədən vergitutma sistemi, lisenziyalar, mühasibat uçotu, təsərrüfat subyektləri, nəzarət-kassa aparatları (e-kassa) və POS-terminallar, muzdlu işçilərin cəlb edilməsi, sığorta haqları barədə məlumatlar əks olunub.

Sənəd Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Biznesə daxilolma” işçi qrupunun dövlət xidmətləri, o cümlədən elektron və rəqəmsal xidmətlər barədə sahibkarların və maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması və məlumatlara əlçatanlıq imkanlarının daha da genişləndirilməsinə dair İntensiv Kommunikasiya Planı çərçivəsində hazırlanıb.

Bukletlə aşağıdakı link vasitəsilə tanış ola bilərsiniz:
https://www.taxes.gov.az/az/page/KQ-dovlet-qeydiyyatina-alinmasi

**Mənbə:**

https://vergiler.az/news/taxes/32999.html

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəs 05.04.2024-cü il tarixində təsdiq olunub

**“Rəqəmsal Hökumətin İnkişafı” Işçi qrupunun fəaliyyəti**

**18.12.2024**

EHİİ indikatorları istiqamətləri üzrə fəaliyyət planının layihəsi hazırlanmaqdadır.

azertag.az

**“Rəqəmsal Hökumətin İnkişafı” işçi qrupunun ilk iclası keçirilib**



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən rəhbərliyi həyata keçirilən “Rəqəmsal Hökumətin İnkişafı” işçi qrupunun ilk iclası baş tutub.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iclas Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) idarə heyətinin sədri İnarə Vəliyeva və İRİA-nın idarə heyəti sədrinin müavini Şahin Əliyevin rəhbərliyi ilə keçirilib. Bununla yanaşı, iclasda Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və bir sıra digər dövlət qurumlarının nümayəndələri də iştirak ediblər.

İlk iclasda Azərbaycanın rəqəmsal hökumət infrastrukturunda mövcud boşluqların müəyyən edilməsi, inkişaf üçün əsas strategiyalar və konkret tədbir planlarının hazırlanması məsələləri müzakirə edilib. Bununla yanaşı, Azərbaycanın EHİİ reytinqini növbəti qiymətləndirmə dövrünə qədər

əhəmiyyətli şəkildə yaxşılaşdırmaq məqsədilə fəaliyyət planı ətrafında fikir mübadiləsi aparılıb.
Görüşün yekununda EHİİ indikatorları istiqamətləri üzrə fəaliyyət planının layihəsi hazırlanaraq ilkin olaraq razılaşdırılması üçün Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinə təqdim olunması qərara alınıb.
Qeyd edək ki, yeni yaradılan işçi qrupunun əsas məqsədi BMT-nin Elektron Hökumətin İnkişafı İndeksində (EHİİ) Azərbaycanın mövqeyinin yaxşılaşdırılması üçün müvafiq meyarlar üzrə hazırlanmış fəaliyyət planının icrasını təmin etməkdir. Fəaliyyət planı əlaqədar dövlət qurumları ilə koordinasiyalı şəkildə icra ediləcək.
İşçi qrupu müntəzəm olaraq toplanacaq, irəliləyişləri qiymətləndirəcək, qarşıya çıxan çətinlikləri müzakirə edəcək və rəqəmsal idarəetmə təşəbbüslərinin uğurla həyata keçirilməsini təmin edəcək.

**Mənbə:**

EHİİ indikatorları istiqamətləri üzrə fəaliyyət planının layihəsi hazırlanmaqdadır.

https://azertag.az/xeber/reqemsal_hokumetin_inkisafi_ischi_qrupunun_ilk_iclasi_kechirilib-3338063

## Digər saytlar və portallar

1. https://report.az/ikt/azerbaycanda-ehi-indeksinin-istiqametleri-uzre-fealiyyet-plani-hazirlanib/
2. https://az.trend.az/business/it/3983716.html
3. https://xeberler.az/new/details/33564.htm
4. https://tv.ikisahil.az/post/562907-reqemsal-hokumetin-inkishafi-ishchi-qrupunun-ilk-iclasi-kechirildi
5. https://xalqqazeti.az/az/last-news/207182
6. https://xeberler.az/new/details/33560.htm
7. https://bbn.az/dovl%c9%99t-xidm%c9%99tind%c9%99-r%c9%99qab%c9%99t-m%c9%99c%c9%99ll%c9%99sinin-t%c9%99tbiqi-bar%c9%99d%c9%99-novb%c9%99ti-maarifl%c9%99ndirici-seminar-kecirilib/
8. https://lider-media.az/index.p?newsid=8355